# “Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli qərarında dəyişiklik edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 69; 2002, № 2, maddə 112, № 10, maddə 647; 2005, № 1, maddə 58, № 11, maddə 1069; 2013, № 7, maddə 870; 2014, № 1, maddə 64, № 2, maddə 196; 2015, № 1, maddə 69; 2016, № 8, maddə 1444; 2017, № 7, maddə 1489, № 8, maddələr 1614, 1620) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri”i yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 21 dekabr 2017-ci il
№ 574

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2017-ci il 21 dekabr tarixli 574 nömrəli qərarı ilə
təsdiq edilmişdir.

## Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri

| Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 190.2-ci maddəsində göstərilən aksizli malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına uyğun kodları | Mal mövqelərinin adları | Aksiz dərəcələri (ölçü vahidinə görə, manatla) |
|---|---|---|
| **1** | **2** | **3** |
| 2203 00 | səməni pivəsi | 1 litr üçün 1,7 manat |
| 2204 (2204 10 110 0 və 2204 30 100 0 istisna olmaqla) | təbii üzüm şərabları, spirt qatılmışlar daxil olmaqla; üzüm suslosu, 2009 mal mövqeyində təsnif ediləndən başqa | 1 litr üçün 3,5 manat |
| 2204 10 110 0 | şampan şərabı | 1 litr üçün 5,0 manat |